***UOT-811.521.1***
***Səhifə: 151-156***
*https://doi.org/10.59849/2663-8967.2024.1.151*

***Aytən Müseyibli***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

# TÜRK DİLLƏRİNDƏ XÜSUSİLƏŞMƏ VƏ SUBYEKTİV MODALLIQ

## XÜLASƏ

Məqalədə semantik yükü nəzərə çatdırmaqdan ötrü xüsusi intonasiya ilə tələffüz edilən, fasilə və vurğu ilə ayrılan, semantik-sintaktik hadisə olan xüsusiləşən üzvlərin mətn şəraitində modallıqla, ələlxüsus da subyektiv modallıqla əlaqə və münasibəti təhlil olunur.

Türk dillərində xüsusiləşmə ilə əlaqədar problemlərdən biri də modallıqdır. Bəllidir ki, modal münasibətlər insan düşüncəsində dərk edilir. Məntiqi-fəlsəfi modallıq öz ifadəsini dildə tapır. Bu zaman dil modallığı meydana çıxır. Cümlə üzvlərinin xüsusiləşməsinin məntiqi-psixoloji və linqvistik əlamətləri təhlil olunur. Məlum olur ki, hər hansı cümlədə semantik dəyişmələr də baş verə bilir. Cümlədə yaranan belə semantik dəyişikliyin hamısı müəyyən dərəcədə subyektiv münasibət nəticəsində meydana çıxır. Bu məsələlərin müqayisəli səpgidə təhlili cümlənin məna aspektinin nəzəri baxımdan tədqiqinə yardım edə bilər. Bununla yanaşı, dilxarici və dildaxili situasiya və cümlənin formal-semantik quruluşunun özəyi olan proporsiya, polipredikativlik, onları yaradan elementlər və vasitələr təhlil olunmuşdur.

***Açar sözlər:*** *cümlə üzvlərinin xüsusiləşməsi, modallıq, modallıq kateqoriyası, subyektiv modallıq, polipredikativ vahidlər.*

**Giriş:** Aktuallaşdırma sintaktik məkanda ilk növbədə cümlə üzvlərini əhatə edir. Burada ikinci dərəcəli üzvlərin xüsusiləşməsi dərk edilir. Cümlə üzvlərinin xüsusiləşməsi fikrin aktuallaşdırılması məqsədilə bir sıra üzvlərin xüsusi intonasiya ilə deyilməsi, fasilə və vurğu ilə nəzərə çatdırılması müstəvisində sintaktik sistemdə baş verən qrammatik-funksional hadisələrdəndir. Bu hadisədə açıq və gizli formalarda dil vahidlərinin gerçək məna və funksiyaları müəyyənləşdirilir. Xüsusiləşdirən vasitələrin köməyi ilə bu təyinat həyata keçirilir.

Türk dillərində xüsusiləşmə və subyektiv modallıq bir-biri ilə sıx bağlılıq təşkil edən məsələdir. "İzahlı dilçilik terminləri lüğəti"ndə oxuyuruq: *"Modallıq-danışanın ifadə olunan fikrə münasibətini, ifadə olunan fikrin obyektiv varlığa münasibətini əks etdirən qrammatik-semantik kateqoriyadır. İfadə olunan fikir məzmunca ya real, ya da qeyri-real şəkildə, ya mümkün, ya da qeyri-mümkün şəkildə, ya arzu olunan, ya da arzu olunmayan, ya zəruri, ya da ehtimali şəkildə və s. anlayışla işlədilə bilər*" [1, s.336 ]

Modallıq nəzəriyyəsində iki növ modallığın olduğu göstərilir: 1) obyektiv modallıq, 2) subyektiv modallıq. Biz burada subyektivlik anlayışından və subyektiv modallıqdan, həmin modallığın xüsusiləşmə ilə əlaqəsindən bəhs edəcəyik.

Subyektivlik müəyyən hədd daxilində ancaq obyektivliklə dialektik birlikdə özünü göstərir. Subyektivlik ilə obyektivliyə nə isə sabit və mücərrəd bir ziddiyyət olaraq baxmaq lazım gəlir. Demək olar ki, hər ikisi tamamilə dialektikdir.

Subyektiv modallıq –ifadə olunan fikrə danışanın münasibətini inikas etdirir. Həmin münasibətlər sırasında inam və inamsızlığın, razılıq və narazılığın ekspressiv qiymətləndirilməsi nəzərdə tutulur. Misal üçün: *Güvenmek gerek (T), İnana bilmiyorum, yağmur yağsın* (T), *Atalar deyib ki, inam olmayan yerdə uman olmaz. Birinci uğur insanlarda inam və ruh yüksəkliyi doğurdu. Həmin saat məndə inanılmaz göründü.* (A)

Bu söyləmlərdə inam, etibar, bir şeyə ürəkdən bağlanmaq, özünə güvənmək, əzm, mətanət, qətiyyət, dönməzlik, ümid etmək, bel bağlamaq və s. subyektiv modal mənalarla tanış olmaq mümkündür. Modal sözlər subyektiv modallığı ifadə edir. Subyektiv modallıq- danışanın verilən

məlumata münasibətidir. Subyektiv modallığa ekspressiv qiymət, danışanın qəti və ya şübhəli münasibəti, inamı-inamsızlığı, qeyd etdiyi fikirlə, reallaşıb-reallaşmadığı və s. daxildir. Məsələn, *Kəsəsi,* dəmir yolu məsələsi düşmən dövlət üçün öz əvvəlki aktuallığını və "cazibədarlığını" itirib cümləsində obyektiv modallığa qətilik çalarını bildirən *kəsəsi* sözünün köməyi ilə subyektiv modallıq da əlavə olunmuşdur Obyektiv modallıq cümlənin ümumi məzmunu ilə, subyektiv modallıq isə onun ayrı-ayrı hissələri ilə bağlı olur. Bu izahlardan aydın olur ki, obyektiv modallıq cümlənin obyektiv reallığa, subyektiv modallıq isə söyləyənin münasibətinə aiddir. Subyektiv modallıqda inam, inamsızlıq, razılıq, narazılıq və s. mənalar ehtiva olunur.

Müqayisə edilən qohum dillərdə subyektiv modallığın oxşar linqvistik ifadə vasitələri vardır. Bunlar aşağıdakılardır: söz sırası, intonasiya (nida intonasiyası, şadlıq, təəssüf, şübhə, təəccüb, qətiyyət, inamsızlıq, tərəddüd, kinayə, şübhə və s.), leksik vahidlər, modal sözlər, ədatlar, nida, ara sözlər, ara söz birləşmələri, ara cümlələr.

Modallıq kateqoriyasının hər biri məna cəhətdən bir-birindən fərqlənir. Hər bir söyləm subyektiv modallıqla əhatə olunur. Subyektiv modallıq "qiymətləndirmə" anlayışı ilə münasibət qura bilir. Subyektiv modallıq xüsusiləşmə ilə qarşılıqlı əlaqədədir. Xüsusiləşmiş strukturun tərkibində subyekt-modal məna mövcuddur.

Cümlə üzvlərinin xüsusiləşməsi probleminə dəqiq yanaşma təkcə əlaqə və münasibətləri meydana çıxarmır, birinci növbədə, cümlə və məntiqin əlaqəsinin mahiyyət və məzmununu açır, həmçinin, həmin prosesdə qrammatikanın öz qanun və mexanizmi, məntiqin qanun və mexanizmindən fərqlənir, ikincisi isə, bu hadisə cümlə üzvləri və predikativ hissə səviyyəsində müşahidə olunur, bununla yanaşı, onlar müxtəlif sintaktik təbiəti əhatə edir və seçilirlər.

Cümlə üzvlərinin xüsusiləşməsinin məntiqi anlayışı psixologiya sahəsində tanınmış alim A.A.Potebniyanın [2, параграф 110] (sonrakı illərdə isə D.N. Ovsyaniko-Kulikovun, A.A.Şaxmatovun əsərlərində əksini tapıb. Cümlə üzvlərinin xüsusiləşməsini A.A.Potebniya əlavə adlandırır. (*appo- sitio,* burada appozitiv cümlə üzvləri (əlavə cümlə üzvləri) *"Appozisiya"* dilçilikdə- başqa isim üçün təyin rolunu oynayan isim, məs.: Azərbaycan dilində *dəmir qapı, taxta qaşıq* və s.) [3, s. 39 ].

A.A.Potebniya göstərir ki, xüsusiləşmiş cümlə üzvləri appozitiv xarakterə malikdir. Bu cəhət predikativliyin məlum əlavə etməsindən ibarətdir. Appozisiyanın funksiyası- xüsusi təyinolunan arasında və təyin budaq cümləsinin feili xəbəridir. Appozitiv funksiya cümlənin xüsusiləşmiş üzvlərinin rolunu müəyyənləşdirir. A.A.Potebniyaya görə, isim, sifət və feili sifət, feili bağlama xüsusiləşmə kimi çıxış edir. Əvəzlik (şəxs əvəzliyi) heç zaman xüsusiləşmiş üzv ola bilmir, ancaq feili sifət və feili bağlama appozitiv mövqedə istifadə olunur. Həmin müşahidə cümlə üzvlərinin polipredikativ təbiəti ilə, cümlənin həmin mənasını itirməməsi ilə əlaqədardır.

Xüsusiləşmə ilə bağlı danışanın nitqinin psixi əlaqəsi ilə yaxınlıq məsələsi A.Şaxmatovun tədqiqatlarında işıqlandırılmışdır. [3, c.35]

Yeri gəlmişkən göstərə bilərik ki, cümlənin semantik cəhəti onun cümlə üzvləri arasındakı münasibəti ilə müəyyən olunur. Cümlə üzvləri arasındakı predikativ münasibət bu sintaktik vahidin məna xüsusiyyətini göstərir. Bunlar sintaktik və semantik predikativlikdir. Münasibət, predikat-cümlə üzvləri, predikat- arqument münasibətləri üzərində qurulur. Həmin strukturlar modal çərçivələrdə təşkil olunur. Məhz xüsusiləşmənin iştirak etdiyi cümlələrin də semantik əsası predikat strukturu üzərində qurulur. Məs.: Geniş yollardan, o cümlədən ovalardan sonra koyu yeşil ormanlarla kaplı dağların, sarp kayaların gölgesindeki geçitleri aştılar. (Fırat Sunel. Salkım Söğütlerin Gölğesinde. 5. Baskı, Haziran 2007, s.83) (T), Ovçuların hamısından, o cümlədən Qədirdən hesab istədilər (Mir Cəlal) (A).

Cümlə üzvlərinin xüsusiləşməsinin tarixi istiqamətdə tədqiqində A.M.Peşkovskinin də əsərlərinin xüsusi yeri vardır. O, cümlələri müqayisə edərək, müxtəlif intonasiya, durğu və qrammatik mənanın, özünəməxsus ritmi olduğunu müəyyənləşdirmişdir. Əlaqə və münasibət nəticəsində meydana çıxan daxili fərqlər cümlə üzvlərinin xüsusiləşmə prinsiplərini təyin edir. Xüsusiləşmənin tarixində formal-qrammatik xüsusiyyətlər, dilin səslənmə tərəfi, melodiya, ritm və əlaqə paralelləri tədqiqatçılar tərəfindən əvvəlcə öyrənilmişdir. Sonra isə tədqiqatçılar xüsusiləşmənin məzmun-mahiyyət tərəfini öyrənməyə cəhd edirlər. Bu hadisəni sintaktik vahid

kimi nəzərdən keçirirlər. Daha sonra cümlə üzvlərinin xüsusiləşməsinə *polipredikativ məsələ* kimi baxılır. (predikat- feillə qarışdırılır, xəbərə bərabər tutulur, remanı ifadə edir və s. bunlar fikir müxtəlifliyidir) Bu dilçiliyə məntiq vasitəsi ilə qəbul edilmişdir. Məs.: Sakit, mülayim olmasına baxmayaraq, Adil birdən-birə bağırmağa başladı burada “bağırmaq” və “başlamaq” sözləri birlikdə mürəkkəb predikatdır. Polipredikativlik cümlənin predikativ əsası fonunda qrammatik üzvlərin xüsusiləşməsinin semantik vasitəsidir. Qeyd edək ki, nisbi sintaktik zaman bu kateqoriyanı əhatə edir, modallıq və personallıq məzmunu kəsb edilir. Nəticədə, məlum olur ki, polipredikativlik subyektiv modallıq kateqoriyası ilə sıx şəkildə bağlıdır. Bəllidir ki, predikativlik- müəyyən məzmunun, ifadə olunan fikrin obyektiv aləmlə münasibətinin linqvistik yolla ifadəsi və təzahürüdür. Predikativlik cümlənin nüvəsini, məzmununu təşkil edir. Qrammatik ifadə vasitələri kimi predikativlikdə zaman, şəxs və modallıq kateqoriyaları iştirak edir. Ona görə ki, xarici aləmə məxsus bütün hadisə və proseslər müəyyən vaxt müddətində baş verir və eləcə də hər bir söyləmin məzmununda müəyyən zamanla bağlı qavranılır. Bununla yanaşı, hər bir söyləm mütləq 3 şəxsdən biri ilə bağlanır. Hər bir söyləmi ifadə edən subyekt mütləq mənada deyilən fikrə öz münasibətini də bildirir. Cümlənin ən ümumi xarakteri əlamət və keyfiyyətləri predikativlik və informasiya ötürmə intonasiyası kimi dəyərləndirilir.

Deməli, hər bir cümlədə predikativlik bütöv və qismən təzahür olunur. İfadə üsulları isə morfoloji, konstruktiv-sintaktik və intonasiyalı sintaktik vasitələrdir. Predikativlik əslinə qalanda modallıq, zaman və şəxs kateqoriyasında reallaşır. Subyektiv modallıq “qiymətləndirmə” anlayışı ilə münasibətdə olan kateqoriyadır. Xüsusiləşmiş cümlə üzvlərində aksent xarakteri itir, nisbətən zəifləyir. Subyektiv modallığın ifadə vasitələri əsas etibarı ilə modal ədatlardır. Belə ədatlar xüsusiləşmiş tərkibdə mövcudluğunu qoruyub saxlayır. Həmin ədatlar daima postpozitiv mövqedə hərəkətin modal mənasını ifadə edir. Modal ədatlar sual cümləsində də istifadə olunur. Məs.: *Şən və xoşbəxt insanlar? Fəhlə paltarı?* Xüsusiləşmə məhz bu tərkibdə aydın olmayan, inamsızlıq, qeyri-müəyyənlik kimi modal mənaları bildirir.

Modal ədatlar irreal mənaları ifadə edir. Feili sifət və feili bağlama tərkiblərində irreal, qeyri-müəyyən mənalarla qarşılaşmaq mümkün olur. Ola bilsin ki, modal ədatlar xüsusiləşmiş birləşmələrdə (tərkiblərdə) istifadə olunur. Amma burada qeyri-müəyyən əvəzliklər də iştirak edir.

A.N.Kononov *imiş* hissəciyini subyektiv modallıq hesab edir. [5, s. 511]

Z.Budaqova qeyd edir ki, “*onsuz da modallığın hər bir növündə danışanın söylənilən fikrə subyektiv münasibəti ifadə olunur. Bu münasibət ehtimal, arzu, zəruri və s. şəkildə ola bilər. Bizə görə, bu məna çalarlıqlarını ümumi bir ad altında (yəni həqiqi, zəruriyyət və ehtimali) birləşdirmək doğru olardı”* [6, s.38].

Beləliklə, xüsusiləşmiş tərkiblər müəyyənləşmiş ədatlar qrupunda funksionallaşır, türk dillərində müxtəlif subyektiv modal mənalar formalaşır, bu quruluş polipredikativlik kateqoriyasının qrammatik mənasından ibarətdir. Türk və Azərbaycan dilində cümlənin xüsusiləşmiş üzvlərinin aşağıdakı ümumi mənaları fərqləndirilir: 1. qeyri-adilik; 2. gözlənilməzlik; 3. yüksək dərəcəli və ya əksinə əlamətin yarımçıq üzə çıxması, onun optimallığı (əlverişliyi), dəqiqlik, artırma, şişirtmə, fikir, mülahizə və s.

Nümunələr: Dopamın qıtlığı bəzi beyin xəstəliklərinə, o cümlədən parkinsona gətirib çıxarır. (Ölkə.Az), AZT-dən başqa, onlarla televiziya var (musavat.com\ntvs), Qısa vaxt sonra deyilən əraziyə operativ qruplar cəlb edilib. Belə olan halda dövlət qurumlarına yalan məlumat vermək və əməkdaşları boş yerə məşğul etməyin cəzası varmı? Bundan əlavə, cinayət edilməsi haqqında bilə-bilə yalan xəbərçilik edilməsi Cinayət Məcəlləsinin 296-cı maddəsinə əsasən, cinayət məsuliyyəti hesab edilir (BakıTV-nun süjetindən).

Zərf bir nitq hissəsi olaraq xüsusiləşmiş tərkiblərdə subyektiv modallığın ifadə vasitəsi kimi çıxış edir. Türk və Azərbaycan dillərində xüsusiləşmiş tərkiblər zərfin ətrafında ehtiva olunur, daha doğrusu, qorunub saxlanılır. Məs.: *Bir qayda olaraq,* əsil sənətkarların, Ulu Yaradanın özü tərəfindən fitri istedad əta olunmuşların əksəriyyətinin həyatı, həm də yaradıcılıq yolu hamar olmur (Zərxanım Ülvi).

Subyektiv modallığın xüsusiləşmə ilə əlaqədar müxtəlif ifadə vasitələri mövcuddur. Müqayisə edilən dillərdə subyektiv modallıq aşağıdakı morfoloji-sintaktik vahidlərlə ifadə olunur:

1.Modal-ara sözlərlə ifadəsi. Bu ifadə modal-ara sözlərin qrammatik təbiətindən irəli gəlir. Modal-ara söz subyektiv-modal qiymətləndirməni əhatə edir. Subyektin nitqində mühüm informasiya mənbəyi vardır. M.A.İvanova yazır ki, "*Modal-ara sözün köməyilə danışan şəxsin eksplisit xarakterik cəhətləri, onların bir-birinə münasibətləri və s. göstərilir. Nə zaman müəllif artıq modal-ara sözlərdən istifadə etmir, deməli, öz mövqeyini aksentləşdirə bilmir, müəllif "mən"inə diqqət yönəlmir*".[7, c.14 (162c.]

Modal ədatlarla ifadəsi. Müqayisə edilən dillərdə ədatlar cümlə üzvü olmur, amma söyləmə müxtəlif cəhətdən semantik incəliklər verir, fikrin məntiqi təşkilinə yardım edir, ifadələri səlisləşdirir. Bunun nəticəsində dinləyənin diqqəti nəzərdə tutulan obyektə yönəlir. Bu obyekt daha çox təhrikedici mənaları (vadaredilmə, təhrikolunma, məcburedilmə və s.) öz ətrafında birləşdirir. Məs.: h a y d ı (T), Kiyamet mi koptu? Kiyamet b e l k e koptu? (T), q o y (A). Bu işi bir mən h a görməmişəm (İ.Şıxlı) Ehtimal subyektiv mənası bəzi cümlələrdə qorunub saxlanmışdır. Türk və Azərbaycan dilində subyektiv modallığın təzahür vasitələri üzərində dayanaq: Söz sırası ilə. Cəmiyyət üzvlərinin bir-birinə demək istədikləri fikrin maddi varlıq forması olan söyləm qarşıdakına çatmaqdan ötrü müxtəlif mərhələlər lazım gəlir. Dil vahidlərinin də birləşməsində müəyyən ardıcıllıq, sıra gözlənilir. Kommunikasiya bu mərhələdən sonra yaranır. Bu sıralanmanın spesifik qanunları, aparıcı gücü vardır. *"Bütün sintaktik vahidlərin tərkib hissələri kimi, cümlə üzvləri də müəyyən qanunauyğunluq əsasında sıralanır. Cümlə üzvlərinin hər birinin özünəməxsus mövqeyi onların ümumi sırasını müəyyən edir. Bu sıralanmada hər bir üzvün tutduğu mövqe onun mənası və qrammatik təbiətindən irəli gəlir"* [8, s.226].

Dildə söz sırası vasitəsilə aktuallaşma əmələ gəlir. K.Abdullayevin fikrincə, "*Azərbaycan dilində bir çox başqa müxtəlif sistemli dillərdə olduğu kimi cümlə üzvünün aktuallaşması yazılı dildə, əsasən, söz sırası hesabına həyata keçirilir. Beləliklə, söz sırası nəinki üslubi cəhətdən cümləni lazımı və vacib vasitəsi kimi göstərir, eyni zamanda, daha tam kommunikativliyə, daha tam informativliyə xidmət göstərən amil kimi çıxış edir"*.[9, s.123].

Söz sırası deyəndə burada modal-ara sözlərin xüsusiləşmə ilə başlı sırası nəzərdə tutulur. Ə.M.Cavadov yazır ki, *"ara sözlər və birləşmələr cümlə daxilində iki vəzifə yerinə yetirir: a) danışan qoyulan fikrə öz münasibətini bildirir; b) ara söz və birləşmələr cümlələr arasında əlaqə yaradır. Bu iki cəhət ara sözlər və birləşmələrin xüsusiləşmə kontekstində yerinə də təsir göstərir. Bir qayda olaraq danışan əvvəlki cümlədə qoyulan fikrə öz münasibətini bildirdikdə ara söz, birləşmə cümlənin əvvəlində gəlir"* [10, s 95].

Leksik təkrarlarla. Türk dillərinin lüğət tərkibindəki leksik təkrarlar içərisində elə sözlər mövcuddur ki, onların başlıca funksiyası müəyyən münasibət ifadə etməkdən ibarətdir. İsim və feil əsaslı modal sözlər buraya daxildir. Eyni modal söz təkrar olunur: *Belki tavşan gibi korkak\Belki toprak gibi akıllı\\Belki gençlik gibi cesur\\Belki su gibi kurnaz* (N.Hikmet); *Bəlkə boş dükanları dolu görmək istəyir? Bəlkə qazandığından çox götürmək istəyir?* (B.Vahabzadə)

Modal sözlərlə. Ümumiyyətlə, hər bir cümlədə modallıq vardır. O sıradan, xüsusiləşmənin işləndiyi cümlələrdə. Modallıq xüsusiləşmənin işləndiyi cümlələrin də nüvəsini təşkil edir. Modal sözlər isə xüsusiləşmənin iştirak etdiyi modallığa öz təsirini göstərir və onu müxtəlif istiqamətlərə yönəldir. Necə deyərlər, *"cümlədə mövcud olan modallığa müxtəlif cəhətlilik, rəngarənglik verir"* [11, s.27].

Cümləyə *məncə, deyilənə görə, filankəsin fikrincə* modal sözləri əlavə edildikdə söylənilən fikrin konkret mənbəyi göstərilir, cümlənin semantikasında xüsusiləşmə, fərdiləşmə özünü göstərir. Cümlədə yaranan belə semantik dəyişikliyin hamısı müəyyən dərəcədə subyektiv münasibət nəticəsində meydana çıxır. Əlbəttə, bunu xalis subyektiv kateqoriya saymaq düz alınmaz. Amma nə vaxtsa modallığı bütün mühakimənin idrak qabiliyyətinə münasibəti kimi xalis subyektiv kateqoriya hesab edənlər olmuşdur. (Məşhur alman filosofu N.Kant) Bəllidir ki, cəmiyyət onu əhatə edənin mövcudluğa, bu varlıqda olan fakt və hadisələrə qarşı bu və ya digər dərəcədə öz münasibətini ifadə edir. Demək, türk və Azərbaycan dillərində, yalnız obyektiv varlıq yox, subyektiv münasibət də inikas olunur. Məhz morfoloji modallıq danışan şəxsin söylənilən fikrə münasibətini bildirən bir kateqoriya sayılır. Belə rəngarəng subyektiv münasibətlər isə məhz modal sözlərin xüsusiləşməsinin iştirak etdiyi cümləyə artırılması xüsusunda ortaya çıxır. Hər iki

müqayisə edilən dilin cümlələrində artırılmış modal sözlər isə cümlənin semantikasına öz təsirini göstərir.

Subyektiv modallıq keçid səciyyəli modal feillərlə də öz ifadəsini tapır.. Məs.: *gör, görünür, görəsən, demə, demək, deməli* (A) və s. Türk dilinə aid: *olur, olmaz, demek, öyle geliyor ki* və s. A.N.Kononov subyektiv modallığın Türkiyə və özbək türkcəsində feillə təzahür olunan modal semantikasından bəhs etmiş və bu yöndə modallığı bu formaların adlarına müvafiq olaraq qruplaşdırmışdır: 1) ə k a n modallığı, 2) b u l m o k feilinin modal formaları, 3) m o k ç i formalı modallıq, 4) d i q a n formalı modallıq, 5) ğ u mənsubiyyət şəkilçisi + III şəxsin təkində duran k e l m o k feilli modallıq [12, c.350-361]

Deyilənlərə əsasən, biz belə düşünürük ki, müqayisə edilən türk dillərinin hər birində xüsusiləşməni yaradan şərait və səbəblər vardır. Bu, xüsusiləşmənin asılı olduğu ümumi və xüsusi şəraitlərdir. Bu dillərdə cümlənin xüsusiləşmiş üzvləri budaq cümlələrlə bərabər tutulur. Bu bərabərlik xüsusiləşmiş üzvlərin polipredikativlər də adlandırırlar. Eyni zamanda, hər ikisinin yaxınlığı sintaktik sinonimləri formalaşdırır.

Cümlənin mübtəda və xəbəri xüsusiləşə bilmir. Ona görə ki, baş üzvlər sintaktik mühitdə əsas informasiyanın daşıyıcısıdır və onlar cümlənin predikativ nüvəsini pozmadan həmin cümlənin tərkibindən çıxarmaq olmaz. Predikativlik bütün cümlələrdə münasibət qurur. Amma hər bir söyləmdə onun ifadə vasitələri fərqlidir.

**Nəticə:** Subyektiv cəhət şəxsə, şəxsiyyətə məxsus olan, onunla əlaqəli, ona tabe olan anlayışdır. Belə ki, modallıq yalnız obyektik deyil, subyektiv səbəblərdən də yaranır. Nitqin obyektiv tərəfi ilə, yanaşı subyektiv tərəfləri də olur. Bu cəhət, yalnız bir şəxsə (subyektə) xas olur, lakin onun ideyalarını, düşüncəsini, təəssüratlarını inikas etdirir. Modallıq, xüsusən də, subyektiv modallıq semantikasına görə, polipredikativliyin formalaşmasına xidmət göstərən vasitələrdəndir.

## Ədəbiyyat siyahısı

1.Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı, “Elm və təhsil”, 2020.
2.Потебня А.А. Из записок по русской грамматике. Ч. 1-2, Харьков, 1888
3. Rusca-Azərbaycanca lüğət. Altıncı nəşr. 3 cilddə, I cild, A-K, Bakı, “Şərq-Qərb”, 2005.
4.Шахматов А.А. Синтаксис русского языка. Л., 1941.
5.Кононов А.Н. Граматика современного турецкого литературного языка. М., Л., 1956.
6.Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Bakı, Azərbaycan SSR EA-nın nəşriyyatı, 1963
7.Иванова М.А. Субъективная модальност и обособление: диссертация…кандидата филологических наул. М., 2015 **www.dislib.** net\russkiy- jazuk\subyektiv-naja-modalnost-i obosoblenie. Html)
8.Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. IY hissə, Bakı, “Maarif” nəşriyyatı, 1972
9.Kamal Abdulla. Azərbaycan dili sintaksinin nəzəri problemləri. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. Bakı: MTM-İnnovation, 2016
10.Cavadov Ə.M. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı, “Elm” nəşriyyatı, 1977
11.Aslanov A.Ə. Modal sözlərin cümlənin semantikasına təsiri. Azərbaycan dilində sintaktik konstruksiyalar (Elmi əsərlərin tematik toplusu), Azərbaycan Dövlət Universiteti, Bakı, 1987
12.Кононов А.Н. Грамматика современного узбекского литературного языка. Изд. АН.СССР. М., Л., 1956.
13.Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. 1-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
14.Hazim Hikmet. Cilt 2. Şiirler (1951-1963) Sofya, 1967.
15.Zərxanım Ülvi. Sevgim-həsrət butası.(şeirlər) Bakı, 2009.
16.Şıxlı İsmayıl. Dəli Kür. Bakı, Gənclik, 1967.
17.Mir Cəlal. Dirilən adam. Roman. İ cild, Bakı, Azərnəşr, 1956.

***Айтен Мусейибли***

***Специализация и субъективная модальность в тюркских языках***

***Резюме***

В статье анализируется связь и взаимосвязь специальных членов, представляющих собой семантико-синтаксические явления, произносимые с особой интонацией, разделенные паузой и ударением, с целью выделения смысловой нагрузки, с модальностью, особенно с субъективной модальностью. Одной из проблем, связанных со специализацией по тюркским языкам, является модальность. Понятно, что модальные отношения понимаются в человеческом мышлении. Логико-философская модальность находит свое выражение в языке. Именно тогда возникает языковая модальность. Затрагиваются также представления о логико-психологических и языковых особенностях специализации членов предложения. Оказывается, смысловые изменения могут произойти в любом предложении. Все подобные смысловые изменения в предложении появляются в той или иной степени вследствие субъективного отношения. Сравнительный анализ этих вопросов может помочь изучить смысловой аспект предложения с теоретической точки зрения. При этом определенное место отводится языковой и внутриязыковой ситуации и пропорции, полипредикативности, создающим их элементам, составляющим ядро формально-смысловой структуры предложения.

***Ключевые слова:*** *специализация членов предложения, модальность, категория модальности, субъективная модальность, полипредикативные единицы.*

***Aytan Museyibli***

***Specialization and subjective modality in turkish languages***

***Summary***

In the article, the connection and relationship of special members, which are semantic-syntactic phenomena pronounced with a special intonation, separated by a pause and emphasis, in order to highlight the semantic load, with modality, especially with subjective modality, is analyzed. One of the problems related to specialization in Turkish languages is modality. It is clear that modal relations are understood in human thought. Logical-philosophical modality finds its expression in language. This is when language modality emerges.Ideas about the logical-psychological and linguistic features of the specialization of sentence members are also touched upon. It turns out that semantic changes can occur in any sentence. All such semantic changes in the sentence appear as a result of subjective attitude to some extent. Analyzing these issues in a comparative manner can help to study the meaning aspect of the sentence from a theoretical point of view. At the same time, a certain amount of space is allocated to linguistic and intra-linguistic situation and proportion, polypredicativeness, the elements that create them, which are the core of the formal-semantic structure of the sentence.

***Key words:*** *specialization of sentence members, modality, modality category, subjective modality, polypredicative units.*

***Çapa tövsiyə edən:*** ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***dosent Təhminə İsmayılova***
***dosent Günel Mirzəyeva***